Oqtay ZƏNGİLANLI

## MÜBARƏK YENİ İL!

Gəlir xoş qədəmlə, arzu-diləklə,
Gəlir halallıqla duzla-çörəklə.
Doldurub qucağın güllə-çiçəklə,
Mübarək yeni il döyür qapını.

Yer-göyü yaradan, qov qüssə-qəmi,
Qurusun, çəkilsin gözlərin nəmi.
Vüsala boy atan həsrətli kimi,
Mübarək yeni il döyür qapını.

Nəğmələr bəzəyir hər yeni ili,
Dolanır evbəev, obanı, eli,
Qarabağ düyünü tapacaq həlli,
Mübarək yeni il döyür qapını.

Həmrəylik günüdür vardır sevincim,
Cahan sülh deyir ulum, birincim,
Umur xoş gələcək şeirim, söz incim,
Mübarək yeni il döyür qapını.

## GƏLİR MÜBARƏKLƏ HƏMRƏYLİK GÜNÜM!

Verildi möhtəşəm tarixi qərar,
Yarandı öz milli birliyim, ünüm.
Həmrəylik günümüz verir bəhər-bar,
Gəlir mübarəklə həmrəylik günüm!

31 dekabr tarixi gündü,
Həmrəylik günümüz tarixə döndü.
Sabaha inamla baxırıq indi,
Gəlir bər-bəzəklə həmrəylik günüm!

Gəlir gündoğandan, Altay, Turandan,
Gəlir Türkiyədən, İraq, İrandan.
Halallıq əxz edib nurlu ”Quran”dan,
Gəlir duz-çörəklə həmrəylik günüm!

Soydaşlar uzun bir yol keçib gəlir,
Doğmalar sevinclə göz yaşın silir.
Odlar diyarını səcdəgah bilir,
Gəlir gül-çiçəklə həmrəylik günüm!

Odlar diyarıma, haqq dərgahına,
50 milyon xalqın qibləgahına.
Gələcək günlərin, xoş sabahına
Gəlir gül çələnglə həmrəylik günüm!

Səsimiz yayılır bütün cahana,
Vətən, yurd sevgisi hopubdu qana.
Əbədi, müstəqil Azərbaycana,
Gəlir xoş diləklə həmrəylik günüm!

Ədalət.-2019.-4 yanvar.s.8.